İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA
MƏRKƏZİ

İyul 2017

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI



# "AZƏRBAYCAN RESPUBLİKASINDA KƏND TƏSƏRRÜFATI KOOPERASİYASININ İNKŞAFINA DAİR 2017-2022-Cİ İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI




"Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti müvafiq Sərəncam imzalamışdır.

90-cı illərin ortalarında Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmiş aqrar islahatlar nəticəsində torpaqların xüsusi mülkiyyətə verilməsi ilə ölkədə fermer təsərrüfatları təşəkkül tapmış və kənddə yeni iqtisadi münasibətlərin əsası qoyulmuşdur.

1995-1996-cı illərdə qəbul edilmiş "Aqrar islahatın əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında" və "Torpaq islahatı haqqında" qanunlar torpaq üzərində dövlət, bələdiyyə və xüsusi mülkiyyət formalarını təsbit etmiş, müasir aqrobiznesin formalaşmasına, təsərrüfat fəaliyyətinin nəticələrinə marağın və məsuliyyətin artmasına, habelə kooperasiyanın perspektiv dövrdə inkişafına şərait yaratmışdır.

Həyata keçirilən davamlı dövlət siyasətinin tərkib hissəsi olaraq, Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış 14 iyul 2017-ci il tarixli müvafiq Sərəncamda "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi nəzərdə tutulmuşdur.

Sərəncam çərçivəsində Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən aşağıdakı tapşırıqların həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- Nazirliyin aparatında müəyyən olunmuş işçilərin say həddi daxilində kənd təsərrüfatı kooperasiyasının inkişafı məsələləri ilə məşğul olan struktur bölmənin yaradılmasının təmin edilməsi;
- Kənd təsərrüfatı kooperativlərinin fəaliyyəti sahəsində uğurlu nəticələr əldə etmiş ölkələrin təcrübəsini nəzərə almaqla sistemli və kompleks tədbirləri həyata keçirməsi;
- Kənd təsərrüfatı kooperativlərinin və onların ittifaqlarının nümunəvi nizamnamələrinin hazırlanmasının təmin edilməsi.

Bundan əlavə, Kənd Təsərrüfatı Nazirliyi bu Sərəncam ilə təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirməlidir. Eyni zamanda, sözügedən Sərəncamla əlaqədar olaraq, Dövlət Proqramının icrasının gedişi barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməlidir.

Sərəncama əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Dövlət Proqramının icrasına ümumi nəzarətini həyata keçirməli, Azərbaycan Respublikasının Nazirlər Kabineti isə bu Sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.




www.iqtisadiislahat.org

www.ereforms.org

www.ecoreform.az

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073

info@ereforms.org

(+994)12 5213318

/ iqtisadiislahat